**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# LEV TOLSTOY YARADICILIĞINDA PSİXOLOGİZM VƏ ONUN 1960-1980-Cİ İLLƏR AZƏRBAYCAN NƏSRİNƏ TƏSİRLƏRİ

| | |
|---|---|
| İxtisas: | 5718.01 – “Dünya ədəbiyyatı (rus ədəbiyyatı)” |
| Elm sahəsi: | Filologiya elmləri |
| İddiaçı: | **Aynur Zahir qızı Bədəlova** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyat kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbərlər: | filologiya elmləri doktoru, professor<br>**Fikrət Çingiz oğlu Rzayev** |
| | filologiya elmləri doktoru, professor<br>**Təyyar Salam oğlu Cavadov** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Lalə Fərman qızı Əhmədova** |
| | filologiya elmləri doktoru, professor<br>**Telman Həmzağa oğlu Cəfərov** |
| | filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Solmaz Ağazəki qızı Əliyeva** |

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Slavyan Universiteti nəzdində fəaliyyət göstərən FD 2.13 Dissertasiya şurası

| | | |
|---|---|---|
| Dissertasiya şurasının sədri: | __________ | filologiya elmləri doktoru, professor<br>**Fikrət Fətiş oğlu Cahangirov** |
| Dissertasiya şurasının elmi katibi: | __________ | filologiya elmləri üzrə fəlsəfə doktoru<br>**Suad Arif qızı Əfəndiyeva** |
| Elmi seminarın sədri: | __________ | filologiya elmləri doktoru, professor<br>**Bella Sirac qızı Musayeva** |

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Psixologizm bir metod kimi dünya ədəbiyyatında formalaşaraq müəyyən inkişaf mərhələləri keçmişdir. XIX əsrdə rus ədəbiyyatında da bu ədəbi metod geniş yayılmış, Fyodor Dostoyevski və Lev Tolstoyun yaradıcılığında psixologizmin təzahürü ən yüksək inkişaf səviyyəsində özünü göstərmişdir. Dahi yazıçı Tolstoyun yaradıcılığının ən başlıca xüsusiyyətlərindən biri psixologizmdir. Dahi düşüncələri, obrazlara şəxsi yanaşması və onların mənəvi aləminə göstərdiyi xüsusi diqqət onu digər yazıçılardan fərqləndirir. Yazıçı üçün obrazların yaşadıqlarını əsərin daxili məntiqinə uyğun olaraq, olduğu kimi təqdim etmək mühüm idi. Tolstoy qəhrəmanlarının təsvirində şəxsi düşüncələrinin və onlara qarşı emosional münasibətinin əsərin inkişafına təsir göstərməməsi prinsipinə əsaslanmış, onların gözlənilən həyat yoluna heç bir müdaxilə etmədən sona çatdırmışdır. Yazıçının psixologizminin mahiyyəti fərqli və ziddiyyətli xarakterli insanları birləşdirən sevgi, təkliyə məhkumluq və əzab, həyatda düzgün yol axtarmaq, həyat qanunlarına və prinsiplərinə uyğun yaşayaraq xoşbəxt ola bilməmək kimi hissləri nümayiş etdirmək idi. Tolstoyun əsərlərində psixologizm ayrı-ayrı müəlliflər tərəfindən tədqiq və təhlil edilmişdir.

Azərbaycan yazıçıları L.Tolstoyun psixologizmini, onun yaradıcılığında təzahür edən dərin insan psixologiyasını anlama və əks etdirmə üsulunu əxz etmişlər. XX əsrin 60-80-ci illəri Azərbaycan ədəbiyyatının inkişaf tarixində mühüm mərhələ kimi səciyyələnir və bu dövr milli ədəbi düşüncənin istiqamət və məzmun baxımından yenilənməsi ilə xarakterizə edilir. Belə ki, 1960-1980-ci illər ədəbiyyatının aparıcı ideya istiqamətini insan amili təşkil edir və bədii təfəkkürün mərkəzində insanın mənəvi aləmi, psixoloji dünyası əsas yer tutur. İnsanın mənəvi zənginliyini təsvir etmək, onu bütün vəziyyətlərdə göstərə bilmək məharəti bu dövr sənətkarlarımız üçün əsas məqsədə çevrilmiş, insanın daxili aləminin ifadəsi əsərlərin təsir gücünü, onların estetik dəyərini artırmışdır. 1960-80-ci illər ədəbiyyatımızın İ.Şıxlı, Ç.Hüseynov, F.Kərimzadə, İ.Məlikzadə,

Anar, Elçin, S.Azəri və digər nümayəndələrinin əsərlərində xarakterin psixoloji dərinliklərinə nüfuzetmə, hiss və duyğuların, xarakter xüsusiyyətlərinin ifadəsi, mənəvi aləmin daha dolğun təsəvvürünün formalaşdırılması kimi keyfiyyətlərin aydın şəkildə üzə çıxması müşahidə olunur. Bu da onu deməyə əsas verir ki, bu dövrdə əsas bədii təsvir metodu psixologizm olmuşdur.

Tolstoy yaradıcılığında psixologizmin ifadə formaları və onun Azərbaycan ədəbiyyatına təsirini, onların arasındakı paralelləri və psixologizminə xas xüsusiyyətlərin ədəbi ənənə şəklində 1960-80-ci illər Azərbaycan nəsrində işlənməsinin araşdırılmasına hələ də ehtiyac var. İndiyəqədərki tədqiqatlarda məhz bu mövzuya tam elmi, əhatəli və sistemli yanaşma çox azdır. Dissertasiya işinin mövzusu bu cəhətdən aktualdır. Bununla belə psixologizm A.B.Yesin "Rus klassik ədəbiyyatında psixologizm"[1], N.Çernışevski[2], O.Lanskayanın[3] araşdırmalarında, M.İmanovun "Azərbaycan nəsrində psixologizm" (1960-70-ci illər)[4], T.Əzimovanın "Anar dramaturgiyasında psixologizm"[5] adlı kitablarında tədqiq edilmişdir. Mövzu ilə bağlı, həmçinin A.Hüseynov[6], T.Salamoğlu[7],

---

[1] Есин, А.Б. Психологизм русской классической литературы / А.Б.Есин. – М.: Флинта, – 1998. – 163 с.; Есин, А.Б. Психологизм русской классической литературы: кн. для учителя / А.Б.Есин. – М.: Просвещение, – 1988. – 176 с.

[2] Чернышевский, Н. Детство и отрочество. Военные рассказы графа Л.Н.Толстого / Н.Чернышевский. – Strelbytskyy Multimedia Publishing, – 2018. – 120 с.; Çernışevski, N.Q. [Электронный ресурс] / URL: http://osutivremeni.ru/chernyshevskij-o-dialektike-dushi-tolstogo/

[3] Ланская, О.В. Концепт 'любовь' в романе Л.Н. Толстого «Война и мир» // Вопросы когнитивной лингвистики, – 2008. № (4), – с.74-77.

[4] İmanov, M.K. Müasir Azərbaycan nəsrində psixologizm / M.İmanov. – Bakı: Elm, – 2021. – 168 s.

[5] Əzimova, T.M. Anar dramaturgiyasında psixologizm / Təranə Əzimova. – Bakı: ADPU, – 2014. – 166 s.

[6] Hüseynov, A.M. Nəsr və zaman / A.Hüseynov. – Bakı: Yazıçı, – 1980. – 185 s.; Hüseynov, A.M. Sənət meyarı / A.Hüseynov. – Bakı: Yazıçı, – 1986. – 315 s.; Hüseynov, A.M. Müxtəlifliyin birliyi / A.Hüseynov. – Bakı: Yazıçı, – 1983. – 214 s.

[7] Salamoğlu, T. Tarixi və çağdaş ədəbi proseslərə dair araşdırmalar / T.Salamoğlu. – Bakı: EL NPŞ MMC, – 2009. – 216 s.; Salamoğlu, T. Qarlı aşırımdan keçən yollar / T.Salamoğlu. – Bakı: Orxan NPŞ MMC, – 2016. – 176 s.; Salamoğlu, T. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri / T.Salamoğlu. – Bakı: BQU, – 2008. – 554 s.

T.Əlişanoğlu[8], Y.Qarayev[9], Y.Axundlunun[10] kitablarını, Tolstoy və Azərbaycan ədəbiyyatının əlaqəli araşdırılması sahəsində A.Alməmmədov[11], F.Rzayevin[12] əsərlərini, G.Həsənova "Lev Tolstoy yaradıcılığının Azərbaycan ədəbiyyatına resepsiyası"[13] dissertasiyasını göstərmək olar. Ədibin yaradıcılığı türkiyəli tədqiqatçıların da diqqət mərkəzində olmuş, E.Çetinkaya, İ.Üstünyer, N.Yıldırım kimi müəlliflər tərəfindən müxtəlif aspektlərdə[14] araşdırılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyekti L.Tolstoy yaradıcılığı və 1960-80-ci illər Azərbaycan nəsridir. Yazıçının psixologizmi və onun 1960-80-ci illər Azərbaycan nəsrində təzahür xüsusiyyətlərinin araşdırılması isə tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi L.Tolstoyun yaradıcılığında psixologizm anlayışının dərinliyini və onun təsir dairəsini, əsərlərində insanın daxili dünyasının, duyğu və düşüncələrinin təfərrüatlı təsvirini, Azərbaycan ədəbiyyatına, xüsusilə də 1960-1980-ci illər Azərbaycan nəsrinə təsirini müəyyən etməkdən ibarətdir. Burada, həmçinin Azərbaycan nəsrində psixologizmin hansı formada və hansı bədii əsərlərdə özünü göstərdiyini üzə çıxarmaq və Azərbaycan yazıçılarının Tolstoyun

---

[8] Əlişanoğlu, T. Azərbaycan "yeni nəsri" / T.Əlişanoğlu. – Bakı: Elm, – 1999. – 128 s.

[9] Qarayev, Y.V. Tarix: yaxından və uzaqdan / Y.V.Qarayev. – Bakı: Sabah, – 1996. – 712 s.; Qarayev, Y.V. Poeziya və nəsr / Y.Qarayev. – Bakı: Yazıçı, – 1979. – 197 s.

[10] Axundlu, Y.İ. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər / Y.Axundlu. – Bakı: Adiloğlu, – 2005. – 550 s.

[11] Alməmmədov, A. Lev Tolstoy və Azərbaycan ədəbiyyatı. Dərs vəsaiti / A.Alməmmədov. – Bakı: – 1972. – 112 s.

[12] Rzayev, F. L.N.Tolstoyun əsərləri: Azərbaycan dilində tərcümə məsələləri / – Bakı: Nurlan, – 2009. – 355 s.

[13] Həsənova, G.A. Lev Tolstoy yaradıcılığının Azərbaycan ədəbiyyatında resepsiyası: / filologiya elmləri doktoru dis. avtoreferatı. / – Bakı, 2022. – 52 s.

[14] Çetinkaya, E. L.N.Tolstoy'un eserlerinin rus politik çevrelerinde eleştirisi / E.Çetinkaya, S.Ramazanov // – Erzurum: Atatürk Üniversitesi Sosyal Bilimler Dergisi, – 2016. № 56, – s. 177-185.; Üstünyer, İ. Lev Nikolayeviç Tolstoy ve Türkiye: türk edebiyatına etkisi // – İzmir: Karadeniz Araştırmaları, – 2021, № 18(69), – s. 219-235.; Yıldırım, N. Andrey Bolkonski ve Piyer Bezuhov'un hayatın anlamını arayışının L.N.Tolstoy'un doğa anlayışı bağlamında değerlendirilmesi // – Ankara: İdil Sanat ve Dil Dergisi, – 2017, № 6 (38), – s. 2621-2637

yaradıcılığından necə təsirləndiklərini, onların öz əsərlərində psixoloji dərinliyi necə işlədiklərini təhlil etmək də əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

Tədqiqatın məqsədinə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilir:

- Psixologizm anlayışının ədəbiyyatşünaslıq kontekstində nəzəri əsaslarını və metodoloji statusunu müəyyənləşdirmək;
- Lev Tolstoy yaradıcılığında psixologizmin əsas ifadə formalarını, xüsusilə daxili monoloq, “ruhun dialektikası” prinsipi, psixoloji təhkiyə və təsvir vasitələrini təhlil etmək;
- Ədibin əsərlərində qəhrəmanların psixoloji yaşantılarının mühit, cəmiyyət və sosial reallıqla qarşılıqlı əlaqəsini müəyyən etmək;
- Yazıçının yaradıcılığında təbiət və psixoloji vəziyyət arasında əlaqənin tipoloji xüsusiyyətlərini araşdırmaq;
- Tolstoy qəhrəmanlarının tənhalaşmasının psixoloji proses kimi funksiyasını və bədii rolunu təhlil etmək;
- 1960–1980-ci illər Azərbaycan nəsrində psixologizmin əsas xüsusiyyətlərini, onun ifadə üsullarını və aparıcı istiqamətlərini müəyyənləşdirmək;
- Azərbaycan yazıçılarının (İ.Şıxlı, F.Kərimzadə, Anar və b.) yaradıcılığında Tolstoy psixologizminin təsir aspektlərini aşkar etmək;
- Tolstoy və Azərbaycan nəsrində obrazların qarşılıqlı münasibətlərinin psixoloji təqdimat üsulunu müqayisəli şəkildə təhlil etmək;
- Ədibin psixologizminin Azərbaycan nəsrində ənənə və novatorluq kontekstində inkişaf istiqamətlərini ümumiləşdirmək.

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji əsasını ədəbiyyatşünaslıq və dünya ədəbiyyatının ümumi qəbul edilmiş metodları təşkil edir. Humanitar elmlər üzrə tətbiq olunan ümumməntiqi metodlar arasında – ümumiləşdirmə, analiz və sintez, eyni zamanda ədəbi təsvir metodlarından istifadə edilmişdir. Bununla bərabər dissertasiyanın hazırlanması prosesində sistemli təhlil, müqayisəli-qarşılaşdırma metodundan geniş istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** Tədqiqat işində müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

1. Lev Tolstoy yaradıcılığında psixologizm bədii metod kimi sistemli xarakter daşıyır və insanın daxili aləminin çoxşaxəli, dinamik və ziddiyyətli inkişafını əks etdirən "ruhun dialektikası" prinsipi əsasında formalaşır.

2. Tolstoy psixologizmi qəhrəmanların daxili dünyasının açılmasında mühit, cəmiyyət və təbiət amillərinin qarşılıqlı təsirinə əsaslanır və bu amillər obrazın mənəvi cəhətdən dəyişməsini şərtləndirən əsas cəhətlər kimi çıxış edir.

3. Ədibin yaradıcılığında psixologizmin əsas estetik ifadə vasitələri (daxili monoloq, psixoloji təhkiyə, davranış motivi, peyzajla psixoloji paralelizm və s.) bütöv bir bədii sistem təşkil edir və bu sistem obrazın daxili aləminin dərindən açılmasına xidmət edir.

4. Yazıçının psixologizmi 1960–1980-ci illər Azərbaycan nəsrində yaradıcı şəkildə mənimsənilərək inkişaf etdirilmiş, bu dövr ədəbiyyatında insanın gündəlik həyat axını daxilində psixoloji təcrübələrinin, mənəvi axtarışlarının və daxili konfliktlərinin təsvirində aparıcı metodlardan birinə çevrilmişdir.

5. Tolstoy yaradıcılığı ilə Azərbaycan nəsrinin müqayisəli təhlili göstərir ki, psixologizm sahəsində ortaq bədii prinsiplərlə yanaşı, Azərbaycan yazıçıları bu metodu milli-estetik xüsusiyyətlər əsasında dəyişərək orijinal psixoloji təsvir metodu kimi təqdim etməyə müvəffəq olmuşlar.

**Tədqiqatın elmi yeniliyi.** Mövzunun ilk dəfə olaraq nəzəri baxımdan sistemli, kompleks şəkildə tədqiqi göstərir ki, L.Tolstoy yaradıcılığında böyük sənətkarlıqla istifadə olunan psixologizm 1960-1980-ci illər Azərbaycan nəsrinə müəyyən təsir göstərmişdir. Dissertasiyada Tolstoy ənənələrinə novator münasibət kontekstində yazıçının yaradıcılığında qəhrəmanların psixoloji yaşantılarının mühit və cəmiyyətlə, təbiət mühiti ilə bağlılığı əsərlərin müqayisəli təhlili əsasında alınan qənaətlərə əsasən müəyyən edilmişdir. Tədqiqat zamanı personajların tənhalaşması psixoloji proses olaraq L.Tolstoy yaradıcılığında psixologizmin estetik imkanlarından biri

kimi göstərilmiş, yazıçının əsərlərində müşahidə edilən tipoloji müəyyənləşmələrə nail olunmuşdur.

Dissertasiyada ilk dəfə olaraq Tolstoy qəhrəmanları Anna Karenina və Vronski Xalq yazıçısı Anarın qəhrəmanları Təhminə və Zaur xarakterlər baxımından, obrazların düşdüyü müxtəlif vəziyyətlərin qarşılaşdırılması, tale yolunun müəyyən kəsişmələrinin tipoloji müqayisəli təhlili fonunda şərh olunmuşdur. 1960-80-ci illər Azərbaycan nəsrində psixologizmi ifadə edən müxtəlif psixoloji təsvir formaları ilə L.Tolstoy psixologizminin ifadə imkanları əsərlərdən nümunələr əsasında müqayisə edilmiş və əsaslandırılmışdır.

Tədqiqat işində ilk dəfə L.Tolstoyun Hacı Murad obrazı ilə İ.Şıxlının Cahandar ağa və F.Kərimzadənin Kərbəlayı İsmayıl obrazlarının xarakter baxımından müxtəlif aspektdə müqayisəli təhlili verilmişdir.

Tolstoy yaradıcılığında psixologizmin təzahür formaları və onların 1960-80-ci illər Azərbaycan nəsrinə təsiri, xarakterlərin qarşılıqlı müqayisəsi, ədibin psixologizminin qeyd olunan dövr Azərbaycan nasirlərinin psixologizmi ilə oxşar və fərqli cəhətlərinin müəyyən edilməsi nəticəsində əldə edilən yekun elmi mülahizələr dissertasiya işinin mühüm elmi yeniliyidir. Aparılan təhlillərə əsasən müəyyən edilmişdir ki, qeyd olunan dövr Azərbaycan yazıçıları Tolstoyun psixologizmindən yaradıcı şəkildə bəhrələnsələr də, onu təqlid etməmiş, öz obrazlarının psixoloji aləmini tamamilə yeni, orijinal formada açmağa nail olmuşlar.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** “Lev Tolstoyun yaradıcılığında psixologizm və onun 1960-1980-ci illər Azərbaycan nəsrinə təsirləri” adlı dissertasiyanın təcrübi əhəmiyyəti bir neçə aspektdən izah edilə bilər.

Birincisi, Tolstoyun əsərlərindəki psixoloji təhlil və insan ruhunun dərinliklərinə enmək bacarığı Azərbaycan nəsrində də öz əksini tapmışdır. Bu dissertasiya həmin təsirləri araşdıraraq, Azərbaycan ədəbiyyatında psixologizmin necə inkişaf etdiyini və bu sahədəki dəyişikliklərin konkret nümunələrlə necə həyata keçdiyini öyrənməyə kömək edəcəkdir.

İkincisi, dissertasiya Azərbaycan yazıçılarının Tolstoyun əsərlərindən təsirlənərək insan təbiətini və daxili təcrübələri necə təqdim etdiklərini araşdırmaqla, Azərbaycan ədəbiyyatında 1960-1980-ci illərdə yazılmış əsərlərin bədii-estetik dəyərini dərinləşdirəcəkdir. Bu, həm ədəbiyyatşünaslar, həm də yazıçılar üçün böyük praktik əhəmiyyət daşıyır, çünki o dövrün ədəbiyyatının ruhunu və psixoloji dərinliyini başa düşmək, yeni yaradıcılıq axtarışlarına yol aça bilər.

Nəhayət, bu mövzunun öyrənilməsi ədəbiyyat tədrisi sahəsində də istifadə oluna bilər. Azərbaycan ədəbiyyatının inkişaf mərhələlərini və xarici təsirləri nəzərə almaqla, yeni nəsil yazıçılar və tələbələr üçün psixologizmin əhəmiyyəti haqqında daha ətraflı məlumatlar təqdim edə bilər. Dissertasiya, həmçinin Azərbaycan yazıçılarının Tolstoyun əsərlərindən götürdükləri yaradıcılıq üsulları və yanaşmalarını anlamaqda əhəmiyyətli rol oynaya bilər.

**Aprobasiyası və tətbiqi.** Müəllifin tədqiqatın mövzusunun fərqli aspektlərinin təhlilinə həsr etdiyi və dissertasiyanın əsas məzmununu əks etdirən beynəlxalq və respublika səviyyəli elmi konfranslarda məruzələri, həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi respublika əhəmiyyətli, eləcə də xarici ölkələrdə nəşr olunmuş jurnallarda, o cümlədən Copernicus indeksli elmi jurnallarda məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyat kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, hər fəsil üç paraqrafa bölünməklə üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş 6 səhifə – 11084 işarə, I fəsil 48 səhifə – 96317 işarə, II fəsil 24 səhifə – 49045 işarə, III fəsil 41 səhifə – 83311 işarə, nəticə 3 səhifə – 5974 işarə. Dissertasiya işi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, ümumilikdə – 245731 işarədən ibarətdir.

# TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekt və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi əsaslandırılmışdır.

Dissertasiya işinin **“Lev Tolstoy yaradıcılığında və 1960-1980-ci illər nəsrində psixologizm elmi-nəzəri problem kimi”** adlı I fəsli üç paraqrafdan ibarətdir. Fəslin ***“Psixologizm anlayışı. Qəhrəmanın daxili aləmi psixoloji təsvirin predmeti kimi”*** adlı birinci paraqrafında psixologizm anlayışından, qəhrəmanın daxili aləminin psixoloji təsvirin predmeti kimi səciyyəsindən bəhs edilmiş, L.Tolstoy psixologizmi və onun təzahür xüsusiyyətləri araşdırılmış, 1960-1980-ci illər nəsrində psixologizmin ədəbiyyatşünaslığın təhlil obyekti olması əksini tapmışdır.

Psixologizm, ədəbiyyatda insanın daxili aləminin bədii təsvirini ifadə edən metod olaraq, personajların hiss və düşüncələrini, təcrübələrini dərin şəkildə əks etdirir. Bu metod insanın daxili aləminin sirlərini dolğun və dərindən nümayiş etdirərək, qəhrəmanın mənəvi aləmini canlı bir axın içində, mürəkkəb bir pafosla ifadə edir. Psixoloji təsvir bədii əsərin əsas istiqaməti olaraq qəhrəmanın daxili aləmini tamamilə üzə çıxarır. Yazıçılar bu metoddan istifadə edərək, qəhrəmanların ziddiyyətli daxili dünyasını müxtəlif yollarla çatdırır və psixoloji təsviri əsərin strukturuna daxil edir. Psixologizm geniş mənada insan həyatını təsvir edən sahə kimi, dar mənada isə qəhrəmanın xarakterini davranış motivlərindən öyrənmək üsulu kimi tanınır. Bu metod epik əsərlərdə daha geniş təsir imkanına malikdir, çünki bu əsərlər qəhrəmanın hiss və düşüncələrini daha əhatəli bir şəkildə ifadə etməyə imkan verir.

***“L.Tolstoy psixologizmi və onun təzahür xüsusiyyətləri”*** adlı fəslin ikinci paraqrafında Lev Tolstoyun yaradıcılığı və onun dünya ədəbiyyatında mühüm yer tutan zəngin bədii irsi təhlil edilir. Onun əsərlərində insan psixologiyasının müxtəlif aspektləri, obrazın daxili ziddiyyətləri, dərin mənəvi aləmi geniş tədqiq olunur. Tolstoy personajlarının hisslərini, düşüncə və təcrübələrini incəliklə təsvir

edərək oxuculara qəhrəmanın daxili aləminə nüfuz etmək imkanı verir. Tolstoyun əsərlərində obrazların düşüncə və hisslərini oxucuya çatdırmaq məqsədilə çoxsaylı bədii üsullardan istifadə olunur. Onun psixologizm metodunu səciyyələndirən daxili monoloqlar, ruhun dialektikası prinsipi və digər bədii vasitələr yazıçının əsərlərində əsas yer tutur. O, qəhrəmanlarının daxilindəki ziddiyyətli mürəkkəbliyi və onların sosial mühitin təsiri altında necə dəyişdiyini ustalıqla təsvir edir. Yazıçının personajları nə qədər mürəkkəb və ziddiyyətli olsalar da, onların daxilində hər zaman yaxşılıq və dürüstlük axtarışı özünü göstərir. Anna Karenina, Pyer Bezuxov, Andrey Bolkonski kimi qəhrəmanlar bu axtarışın və psixoloji təhlilin canlı nümunələridir. Yazıçının əsərlərində geniş yer alan daxili monoloqlar və psixoloji analiz personajların mənəvi aləmini tam şəkildə açmağa xidmət edir. Onun qəhrəmanları bəzən mühitin və sosial dəyişikliklərin təsiri altında qalaraq dəyişir və oxucu onların daxili mübarizəsini izləyir. Ümumilikdə, Tolstoyun psixologizmə əsaslanan yaradıcılığı dünya ədəbiyyatında özünəməxsus yer tutur və bu səbəbdən də onun əsərləri hər zaman tədqiqat mövzusu olaraq qalmaqdadır.

Tolstoy yaradıcılığında mənəvi aləmin təsviri formalarından biri də dialoqdur. Anna və Vronskinin dialoquna nəzər salaq:

*"– Mən sizin getdiyinizi bilmirdim. Siz nə üçün gedirsiniz? – dedi.*

*Annanın üzündə qarşısıalınmaz bir sevinc və coşğunluq alışıb yandı.*

*– Nə üçün gedirəm? – deyə Vronski düz Annanın gözlərinin içinə baxaraq təkrar etdi. – Siz bilirsiniz ki, mən ona görə gedirəm ki, siz harda olsanız mən də orda olum. Mən başqa cür hərəkət edə bilmirəm".*[15]

Bu dialoq vasitəsilə Tolstoy insanın daxili aləmindəki arzuolunanla mümkünsüzlüyün mübarizə qarşıdurmasını göstərməyə müvəffəq olmuşdur. "Anna Karenina" romanı hesab etmək olar ki, ədibin ən möhtəşəm romanlarından biridir. Əsərdə obrazların daxili ziddiyyətlərinin, mənəvi axtarış və psixoloji yaşantılarının geniş

---

[15] Tolstoy, L.N. Əsərləri: [14 clddə] Anna Karenina. Səkkiz hissədən ibarət roman. II kitab. V-VIII hissələr / L.N.Tolstoy. – Bakı: Yazıçı, – c. 9. – 1981. – s. 136.

şəkildə təsvir edilməsi əsərin psixoloji roman kimi səciyyələndirilməsinə əsas verir.

Lev Tolstoyun "Hərb və sülh" romanında ideoloji və mənəvi axtarışlar müəllifin sevimli qəhrəmanları olan Andrey Bolkonski, Pyer Bezuxov və Nataşa Rostovanın daxili aləminin inkişafı və təkamülü ilə ifadə olunur. Bu qəhrəmanlar Tolstoy üçün hər zaman həyati və fəlsəfi həqiqətlər axtarışında olan xarakterlərdir. Onlar müxtəlif həyat təəssüratlarının təsiri ilə dəyişir, inkişaf edir və mənəvi kamilliyə doğru yönəlir. Tolstoyun yaratdığı bu xarakterlərin daxili aləmi dinamikdir və daim təkamül keçirir. Yazıçının məqsədi qəhrəmanlarının daxili aləmini mümkün qədər dərin və ətraflı təsvir etməkdir, çünki bu, onun psixologizminin əsas prinsipi olan "ruhun dialektikası" ilə sıx bağlıdır. Andrey Bolkonski həyatın mənasını axtaran, dərin düşüncəli bir qəhrəmandır. Onun həyatında müharibə və şəxsi itkilər, xüsusilə həyat yoldaşının ölümü, onu mənəvi boşluğa sürükləyir. Lakin Nataşa Rostova ilə qarşılaşdıqda o, yenidən yaşamaq arzusunda olur. Andreyin xarakteri yüksək mənəvi və sosial ideallar axtarışında olan, lakin şəxsi həyatında bədbəxt və tək qalmağa məhkum olan bir qəhrəman kimi təqdim edilir. Andrey mənəvi və emosional olaraq daim dəyişən və inkişaf edən bir qəhrəman kimi əsərin sonuna doğru mənəvi rahatlıq tapır, lakin Nataşa ilə münasibətlərinin pozulması onun ölümünə yol açır. Pyer Bezuxov isə mənəvi axtarışları ilə fərqlənən, daxili sarsıntılar yaşayan bir qəhrəmandır. Atasının ölümündən sonra kübar mühitə düşən və Elenlə evləndikdən sonra özünü boşluqda hiss edən Pyer mənəvi xoşbəxtlik axtarır. Doloxovla olan dueldən sonra onun daxili aləmində böyük dəyişikliklər baş verir. O, həyatının yalan üzərində qurulduğunu dərk edir və mənəvi inkişafa doğru addımlar atır. Pyerin həyatda əsl mənəvi yolunu tapması onun Nataşa Rostova ilə olan münasibətləri ilə əlaqələndirilir. Əsərin sonunda Pyer Nataşa ilə ailə həyatı quraraq öz xoşbəxtliyinə qovuşur. Nataşa Rostova sevgi və həyat dolu, emosional olaraq dəyişkən bir xarakterdir. Anatol Kuraginin ona vurduğu psixoloji zərbə və Andrey Bolkonskiyə etdiyi xəyanət onu ağır mənəvi sarsıntıya uğradır. Lakin zamanla o, öz səhvini dərk edir və ailəsinə, xüsusilə Pyerə olan sevgisi sayəsində mənəvi yüksəlişə nail olur. Nataşanın xarakteri mənəvi kamillik və

özünüdərk prosesində böyük dəyişikliklər keçirir. Əsərin sonunda o, ailə həyatına sadiq, mərhəmətli və həyatsevər bir qadın kimi öz xoşbəxtliyinə qovuşur. Tolstoyun psixologizmi xarakterlərin daxili aləminin dərinliyinə diqqət yetirməklə özünü göstərir. Onların düşüncə və hisslərinin davamlı dəyişməsi, onların mənəvi inkişafının əsas məqamlarında təsvir edilir. Yazıçı psixologizminin "ruhun dialektikası" adlandırıldığı prinsip, xarakterlərin daxili aləminin daim hərəkətdə və inkişafda olduğunu göstərir. Xüsusilə Andrey Bolkonski, Pyer Bezuxov və Nataşa Rostovanın həyat təcrübələri və qərarları onların mənəvi inkişafına güclü təsir göstərir.

Ədibin obrazların daxili dünyasını təsvir etməkdəki məqsədi oxucunu onların düşüncə və hissləri ilə tanış etmək və mənəvi həqiqətləri tapmaq prosesində onlarla birlikdə yol getməkdir. Bu qəhrəmanlar vasitəsilə Tolstoy həyatın mənası və insanın mənəvi kamillik axtarışı ilə bağlı öz fikirlərini ifadə edir.

Bir sənət əsərində tarixi bir şəxsiyyət ədəbi bir qəhrəmana çevrilmişsə yazıçının istəyindən asılı olaraq həmin şəxsiyyətin xarakteri dəyişkən və ya olduğu kimi göstərilə bilər. Tolstoyun "Hacı Murad" povestinin qəhrəmanı Hacı Murad da belə təsvir edilmişdir. A.Əlizadə qeyd edir: *"Mənbələrdən məlum olur ki, L.N.Tolstoy ömrünün son illərində yazdığı bu əsərin baş qəhrəmanı haqqında Qafqazda xidmət etdiyi zamanlarda eşitmişdi. Bunu demək üçün isə Tolstoyun qardaşı Serqeyə 1851-ci ildə yazdığı məktub əsas götürülür. Yəni əsərdəki təsvirlər Tolstoyun əsgərlik illərində gördüklərinin əksi kimi qiymətləndirilir"*[16]. Hacı Muradı tarixi bir şəxsiyyət kimi tanısaq da bədii qəhrəman kimi biz Hacı Murad obrazını Tolstoyun nəzəri ilə tanıyırıq. Tolstoy ona bir obraz kimi güc, yaşamaq istəyi verir, canlı və fəal həyat mövqeyinə malik bir personaj kimi təqdim edir. O, bu povestində hadisələrin tarixi gedişatını dəqiq vermiş və avar xalqının mübarizlik əzmini məharətlə təsvir etmişdir. Tolstoyun humanizm, mənəvi kamillik, insanın daxili aləmi və əxlaqi dəyərlərlə bağlı ideyaları Azərbaycan yazıçılarının yaradıcılığında da müəyyən izlər buraxmışdır. Buna görə də Tolstoyun Azərbaycan ədəbiyyatı ilə əlaqələrinin müxtəlif

[16] Əlizadə, A.Ş. Hacı Murad obrazı L.N. Tolstoy və M. Hüseyn yaradıcılığında // A.Ş.Əlizadə // Bakı Universitetinin Xəbərləri, – 2024. № 1, – s.49.

aspektlərinin tədqiqatçıların diqqət mərkəzində olması təsadüfi deyil. Bu faktlar Lev Tolstoyun Azərbaycan ədəbi mühitində xüsusi yer tutduğunu və onun yaradıcılığının daim aktual olaraq qaldığını təsdiqləyir.

Birinci fəslin üçüncü paraqrafı ***"1960-1980-ci illər nəsrində psixologizm ədəbiyyatşünaslığın təhlil obyekti kimi"*** adlanır.

1960-1980-ci illər psixologizm Azərbaycan nəsrində mühüm ədəbi metod kimi formalaşdı və bu dövrdə yazılan əsərlərdə insanın daxili dünyası, mənəvi yaşantıları, psixoloji motivlər ön plana çıxdı. Bu dövrün yazıçıları insan xarakterini dərinliklə analiz etmiş və bununla da xarakterlərin mənəvi aləmini, hiss və düşüncələrini oxuculara aydın şəkildə çatdırmışlar. XX əsrin ikinci yarısına qədər əsərlərdə insanın daxili aləmi, adətən, zahiri davranış və hərəkətlər vasitəsilə ifadə olunurdu. Qəhrəmanların mənəvi aləminin ətraflı təsviri, daxili monoloqlar və personajın xarakterini göstərən geniş nitq formalarından əsərlərdə az hallarda istifadə olunurdu. Lakin 1960-cı illərdən etibarən, insanın psixoloji aləminə daha dərindən nüfuz etmək üçün əsərlərdə fərqli yanaşmalar inkişaf etdi. İnsanın cəmiyyətə, özünə və dünyaya baxışı, keçirdiyi psixoloji sarsıntılar, həyatında baş verənlərin təsiri nəticəsində xarakterlərdəki formalaşma və dəyişkənlik əsərlərin əsas mövzusuna çevrildi. Bu dövr yazıçıları, xüsusən İsmayıl Şıxlı, Anar, Elçin, İsi Məlikzadə, Sabir Azəri psixologizm metodundan istifadə edərək gözəl əsərlər ərsəyə gətirdilər. Psixologizmin inkişafı bu dövrdə ədəbiyyatşünaslıqda da geniş tədqiqat obyektinə çevrildi. Görkəmli tədqiqatçılar və ədəbiyyatşünaslar, məsələn, A.Hüseynov, Y.Qarayev, X.Əlimirzəyev, T.Salamoğlu və başqaları bu dövr ədəbiyyatında obrazların mənəvi aləminə, xarakter cəhətlərinin bədii ifadəsinə xüsusi diqqət göstərdilər. M.İmanovun "Azərbaycan nəsrində psixologizm" adlı kitabı isə bu istiqamətdə ən yaxşı tədqiqatlardan biri kimi qəbul edilir. 1960-80-ci illər nəsrində psixologizmin əsas xüsusiyyətlərindən biri qəhrəmanın daxili dünyasının hiss, duyğu, emosiya, düşüncə, hərəkət vasitəsilə dərin şəkildə ifadə olunması idi. Əsərlərdə qəhrəmanın mənəvi aləmi daxili monoloqlarda, dialoqlarda, zahiri rəftar və davranışlarda, təbiət təsvirləri vasitəsilə təqdim edilirdi. Məsələn, Elçinin "Baladadaşın ilk

məhəbbəti” və ya Anarın “Dantenin yubileyi” kimi əsərlərdə qəhrəmanların psixoloji yaşantıları onların xarakterlərini formalaşdıran əsas element kimi təqdim olunur. Psixoloji təsvir bu dövrdə qəhrəmanların mənəvi inkişafı ilə yanaşı, onların həyat təcrübəsinin nəticəsi olaraq oxuculara təqdim edilir.

Beləliklə, XX əsrin ikinci yarısında yazılmış əsərlərdə insanın daxili aləmi, mənəvi yaşantıları və emosional hisslər sahəsinin bədii təsviri geniş vüsət aldı. Bu zaman diqqət obrazların psixoloji aləminə yönəlirdi. Sənətkarlar insan təbiətinin mürəkkəbliyini, xarakterlərinin müxtəlif mənəvi tərəflərini təsvir edərək psixoloji təsvirin zənginliyi ilə oxuculara daha dərin əsərlər təqdim etdilər.

*Birinci fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.*[17]

Dissertasiya işinin **“L.Tolstoy yaradıcılığında psixologizmin estetik imkanları”** adlanan ikinci fəsli üç paraqrafdan ibarətdir. Bu fəsildə L.Tolstoy qəhrəmanlarının psixoloji yaşantıları mühit və cəmiyyət kontekstində araşdırılır, ədibin qəhrəmanlarının tənhalaşması psixoloji proses kimi tədqiq edilir və yazıçının qəhrəmanlarının daxili dünyası ilə təbiət mühiti arasında əlaqənin tipologiyası geniş şəkildə şərh edilir.

II fəslin birinci paraqrafı ***“L.Tolstoy qəhrəmanlarının psixoloji yaşantıları mühit və cəmiyyət kontekstində”*** adlanır.

Tolstoyun əsərlərində qəhrəmanlarının psixoloji yaşantıları mühit və cəmiyyət kontekstində baş verir. Tolstoy qəhrəmanlarını cəmiyyət və sosial mühitin təsirləri altında formalaşan, inkişaf edən

[17] Bədəlova, A.Z. Lev Tolstoyun “Hərb və sülh” romanında psixologizmin təzahür xüsusiyyətləri // Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransı, – Bakı: – 22-23 noyabr, – 2018, – s.224-226; Lev Tolstoy nəsrində psixologizm // – Bakı: AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2020. №1, – s.297-303; 1960-1980-ci illər Azərbaycan nəsrində psixologizm // – Bakı: Dil və Ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2020. – s.132-134; Psixologizm anlayışı. Qəhrəmanın daxili aləmi psixoloji təsvirin predmeti kimi // “Türk dillərinin və ədəbiyyatinin tədqiqi və tədrisinin aktual problemləri” Beynəlxalq elmi konfrans, – Sumqayıt: – 20-21 may, – 2021. №4, – s.316-318; Human psychology in Leo Tolstoy's creativities // – Москва: Филология будущего, которое мы создаем: тенденции, смыслы, приоритеты. Московский международный университет, Институт иностранных языков, – 2025.– s.183-190. eLIBRARY ID: 82533600 EDN: HPXTSW

şəxslər kimi təqdim edir. Bu yanaşma onun yaradıcılığında əsas mərkəzlərdən birini təşkil edir, çünki Tolstoy insana və onun daxili aləminə, o cümlədən xarakterinin formalaşmasına cəmiyyətin təsirini daim vurğulayır. Tolstoyun avtobioqrafik trilogiyasında ("Uşaqlıq", "Yeniyetməlik", "Gənclik") qəhrəman Nikolenka İrtenyevin uşaqlıqdan yetkinlik dövrünə qədər olan həyatı mühit və cəmiyyətlə qarşılıqlı əlaqədə təsvir olunur. Bu trilogiyada Nikolenkanın xarakteri və psixoloji vəziyyəti ətrafında baş verən hadisələrə görə dəyişir. Nikolenka zadəgan ailəsində dünyaya gəlir və müəyyən qaydalar çərçivəsində tərbiyə olunur, lakin onun fərdi dünyagörüşü ilə yaşadığı mühit arasındakı uyğunsuzluq şəxsiyyətinin formalaşmasına və psixoloji inkişafına ciddi təsir edir. Ətraf mühit və cəmiyyətin onu daim qınadığını hiss edir, bu da onun utancaqlığını və daxili təəssüflərini artırır. Nikolenkanın Seryoja İvinlə olan dostluq münasibətləri və İlenkaya qarşı münasibəti də cəmiyyətin onun davranışlarına təsirini göstərir. İlenkaya mərhəmətsiz rəftarı və sonra yaşadığı peşmanlıq hissi onun xarakterindəki psixoloji dəyişiklikləri vurğulayır. Xüsusilə öz hərəkətlərini dərk etdikcə yaşadığı təəssüf və utanc hissləri qəhrəmanın mənəvi cəhətdən yetkinləşməsinə təsir edir və onun şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır.

Andrey Bolkonski isə müharibə mühitində dəyişir. Austerlits döyüşündə ağır yaralanması, ailəsinin yanına geri dönməsi, daha sonra həyat yoldaşının ölümü onu ağır psixoloji sarsıntılara düçar edir. Tolstoy burada müharibə mühitinin və şəxsi itkilərin Andreyin daxili aləminə olan təsirini ustalıqla təsvir edir. Nataşa Rostova isə saf, səmimi və həyatsevər bir gənc qız kimi ailəsinin qayğısı və ətrafındakı insanların sevgisi ilə böyüyür. Andreyə xəyanət etdikdən sonra yaşadığı peşmanlıq və psixoloji iztirablar Nataşanın xarakterində ciddi dəyişikliklər yaradır. Bu hisslər onun öz səhvlərini dərk etməsinə, mənəvi baxımdan yetkinləşməsinə və həyata münasibətinin dəyişməsinə səbəb olur. Müharibə zamanı ailəsinə və yaralı əsgərlərə yardım etmək arzusu onun daxili aləmini yenidən formalaşdırır. Tolstoyun "Dirilmə" romanında[18] isə mühitin və

---

[18] Tolstoy, L.N. Dirilmə: [XV cilddə] / L.N.Tolstoy. – Bakı: Yazıçı, – c. XII. – 1983. – 224 s.

cəmiyyətin insanın xarakterinin formalaşmasındakı roluna daha dərindən toxunulur. Katyuşa Maslova saf və məsum bir qızdır, lakin Nexlyudovla yaşadığı hadisədən sonra mühitin və cəmiyyətin onu necə məhv etdiyini görürük. Katyuşanın həyatı mühitin təsiri ilə dəyişir, o, səhv yollara düşür və mənəvi cəhətdən məhv olur. Romanın sonunda Katyuşanın "mənəvi dirilməsi" mühitin insanı dəyişdirə biləcəyini, onun daxili saf hisslərinin yenidən oyanışını göstərir. Əsərdə Nexlyudovun dirilişi insan həyatının əsas qanununun cəmiyyətin sevgisindən ibarət olmasına gətirib çıxarır. İnsanlar bir-birinə qarşı sevgiylə, hörmət və qayğı ilə yanaşmalıdır. Yazıçının qəhrəmanı hamı kimi adi bir insandır, hətta çoxlarından yaxşıdır, çünki dirilmə işığına yaxındır, həqiqətin yolundadır.

Tolstoyun "Anna Karenina" romanında[19] da mühit və cəmiyyət qəhrəmanların psixoloji vəziyyətinə birbaşa təsir göstərir. Anna Karenina cəmiyyətin qınağı və təzyiqi altında qaldığı üçün iztirab çəkir və nəticədə intihar edir. Cəmiyyətin və yüksək təbəqənin təzyiqləri Annanın dərin psixoloji böhran yaşamasına səbəb olur. Onun ailə həyatı və Vronski ilə münasibətləri də bu təzyiqlər altında dəyişir və nəticədə mühit və cəmiyyətin qınağı hər iki qəhrəmanı məhv edir.

Tədqiqatçılardan K.Lomunov[20] Tolstoyun qəhrəmanlarının daxili aləmini və onların mühitlə qarşılıqlı əlaqəsini araşdıraraq göstərir ki, sosial mühit insan psixologiyasının formalaşmasında əsas rola malikdir. O, Nexlyudovun mənəvi axtarışlarını təhlil edərkən qeyd edir ki, qəhrəmanın içindəki vicdan səsi və cəmiyyətlə toqquşması onu dərin mənəvi dəyişikliklərə məcbur edir.

Beləliklə, Tolstoy qəhrəmanlarının psixoloji yaşantıları və xarakterlərinin formalaşması mühit və cəmiyyətin təsiri altında baş verir. Onun əsərlərində cəmiyyətin qəhrəmanlara olan münasibəti və mühitin onlara təsiri əsas mərkəzi mövzulardan biri kimi təsvir edilir. Tolstoy qəhrəmanlarının mənəvi aləminin dəyişməsində sosial

---

[19] Tolstoy, L.N. Anna Karenina: [XV cilddə] / L.N.Tolstoy. – Bakı: Yazıçı, – c. VIII. – 1981. – 226 s.

[20] Ломунов, К.Н. Жизнь Льва Толстого / К.Н.Ломунов. – Москва: Художественная литература, – 1981. – 255 с.

mühitin vacib rol oynadığını göstərir və insanın psixologiyasını təsvir edərkən mühitin əvəzsiz təsirini vurğulayır.

II fəslin ikinci paraqrafı ***"Lev Tolstoy qəhrəmanlarının tənhalaşması psixoloji proses kimi"*** adlanır.

İnsan bir varlıq kimi sosial mühitdə formalaşır və insanlardan təcrid olunması istisna edilməsə də, fərdin tamamilə cəmiyyətdən qopması mümkünsüzdür. İnsan və onun mənəvi mahiyyətini bütün dərinlikləri ilə şərh edən Tolstoy əsərlərində insanın mənəvi aləmini fərdi düşüncələri şəklində göstərmiş, bəzən personajların hiss və duyğularını, mənəvi böhranının hərtərəfli göstərilməsi üçün onların tənhalaşması prosesini təsvir etmişdir. Bunun üçün yazıçının qəhrəmanlarının həyatında baş verən hadisələr onları daxili təcrid vəziyyətinə sürükləyir və tənhalaşma prosesinin nəticəsində onların həyat haqqında təsəvvürləri dərinləşir, mürəkkəb mənəvi-psixoloji böhran yaşayır və həyat həqiqətlərini yenidən dəyərləndirirlər. Tolstoyun bədii düşüncəsindəki tənhalıq mövzusu fərqli kontekstdə – mənəvi saflıq, xeyirxahlıq və işıq kimi aydın prinsiplərə gətirib çıxarır. Yazıçının qəhrəmanlarından Nataşa Rostova, Andrey Bolkonski, Pyer Bezuxov, Anna Karenina, Nikolay İrtenyev, Hacı Murad ətraf mühitin təsirindən, şəxsi həyatlarında yaranan problemlərdən, xoşbəxt olmağa çalışarkən uğursuzluqlarla qarşılaşmaşları səbəbilə mövcud mühitdən təcrid olunur, cəmiyyət içindən uzaqlaşırlar. Hər kəsdən uzaq, öz mənəvi dünyasında gələcəyi düşünür, həyat haqqında düşüncələrə dalırlar. Tolstoy qəhrəmanlarının tənhalaşmasını onların sosial münasibətlərdə uğur qazana bilməməsi ilə əlaqələndirirdi. Yazıçının qəhrəmanları gerçəkləşməyən və arzu olunan münasibətləri real həyatda qazana bilmədikləri üçün tənhalığa meyl edərək özlərini cəmiyyətdən kənarlaşdırırlar. Nəticədə bu, onların bütün həyatına, cəmiyyətdə insanlarla münasibətinə təsir edir.

Beləliklə, tənhalıq onları mənəvi cəhətdən yenidən formalaşdıran, həyata daha real baxışlarını səciyyələndirən estetik meyar kimi göstərilir. Onların tək qalmaq istəyi psixoloji-mənəvi böhran hallarında baş verən təcrübə kimi sakit, təcrid olunmuş mühitdə düşüncələrə qərq olmaq, yaşadığı hadisələri dərk etmək üçün bir vasitədir.

II fəslin üçüncü paraqrafı ***“L.Tolstoy qəhrəmanlarının daxili dünyası ilə təbiət mühiti arasında əlaqənin tipologiyası”*** adlanır.

Ədibin əsərlərində təbiət qəhrəmanların daxili dünyası ilə yaxından bağlı olan bir elementdir və bu əlaqə əsərin məzmununda mühüm rol oynayır. Tolstoy təbiəti yalnız bir fon kimi təsvir etməklə kifayətlənmir, o, təbiət mühitini qəhrəmanların psixoloji vəziyyətini, hisslərini, düşüncələrini və mənəvi inkişafını izah etmək üçün bir vasitə kimi istifadə edir. Təbiət, insan psixologiyası ilə əlaqəli şəkildə təsvir edilir və onun qəhrəmanlarının daxili yaşantıları təbiətlə vəhdət təşkil edir. Bu bağlılıq, insanın təbiət qarşısında hiss etdiyi tənhalıqdan, ruhun dirçəlişinə qədər geniş bir sahəni əhatə edir.

Tolstoyun “Hərb və Sülh” romanında təbiət təsvirləri qəhrəmanların daxili dünyasını təsvir etmək üçün bir vasitədir. Knyaz Andreyin həyatında iki dəfə təsvir edilən palıd ağacı onun daxili böhranını və sonrakı mənəvi dirçəlişini ifadə edir. Palıd ağacı əvvəlcə Andreyin həyatın mənasızlığına dair hisslərini simvollaşdırır. Lakin Nataşa ilə görüşdən sonra Andrey həmin ağacı yenidən gördükdə, onu canlanmış, yarpaqları yaşıl, daha gənc görür. Bu, obrazın mənəvi dirçəlişini simvolizə edir. Təbiət, burada yalnız bir təsvir olmaqla kifayətlənmir, o, qəhrəmanın daxili aləminin bədii ifadəsi kimi çıxış edir.

“Anna Karenina” romanında təbiət Anna və Levinin həyatında fərqli şəkildə təzahür edərək onların daxili aləmini əks etdirən mühüm vasitəyə çevrilir. Annanın daxili narahatlıqları və gərginliyi qar fırtınası ilə təsvir edilir. Onun Vronski ilə olan münasibətləri təbiətin əks-sədasında müşahidə edilir, fırtına onun daxili dünyasında yaşadığı təlatümləri təcəssüm etdirir. Levin isə təbiətlə daha ahəngdar və üzvi şəkildə bağlıdır. Onun kənd həyatına yaxınlığı, təbiətə olan sevgisi və təbiət qarşısında keçirdiyi mənəvi hisslər onun həyatdakı xoşbəxtliyinin əsasını təşkil edir. Tolstoy burada təbiəti insan həyatına daxil edərək, onların daxili aləminə uyğun bir təsvir yaradır. Levin üçün təbiət həyatın dərki və yaşamaq üçün əsas vasitə kimi, Anna üçün isə təbiət onun daxili təlatümlərinin və psixoloji böhranın bədii təcəssümü kimi çıxış edir.

Tolstoyun “Dirilmə” romanında da təbiət qəhrəmanların daxili dünyasını ifadə etməkdə mühüm rol oynayır. Nexlyudovun daxili

dirçəlişi təbiət vasitəsilə təsvir edilir. O, təbiətə yaxın olduqca mənəvi inkişafını hiss edir. Məsələn, onun yağışlı havada təmiz havanı ciyərlərinə çəkməsi və bu təmizliyin ona mənəvi rahatlıq gətirməsi təbiətin qəhrəmanın mənəvi saflaşmasının və özünüdərkinin bədii ifadə vasitəsidir.

Tolstoyun "Hacı Murad" povestində[21] isə təbiət qəhrəmanların həyat mübarizəsini əks etdirir. Hacı Muradın təbiətlə mübarizəsi onun igidliyini və inadkarlığını simvollaşdırır. Hacı Muradın xarakteri, təbiətin sərtliyində əks olunur, təbiətlə paralel şəkildə qəhrəmanın qətiyyəti və mübarizəsi ortaya qoyulur. Təbiət burada insan həyatının təbii bir hissəsi olaraq onun xarakterini və mənəvi gücünü vurğulayır.

Beləliklə, Tolstoy yaradıcılığında təbiət insan ruhunun və mənəvi inkişafının bir təzahürü olaraq çıxış edir. Təbiət təsvirləri qəhrəmanların daxili dünyasını açmaq və onların psixoloji vəziyyətini oxucuya daha dərindən çatdırmaq üçün vacib bir vasitədir. Tolstoy üçün təbiət, insanın daxili aləminin təbii təcəssümü kimi təqdim olunur və bu əlaqə onun əsərlərinin bədii gücünü və estetik dəyərini artırır.

*İkinci fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.*[22]

Dissertasiya işinin **"L.Tolstoy psixologizminin 1960-1980-ci illər Azərbaycan nəsrindəki ənənələri"** adlanan üçüncü fəsil üç paraqrafdan ibarətdir. Fəsildə 1960-1980-ci illər nəsrində L.Tolstoy psixologizminin ifadə üsulları tədqiq edilir, Anar nəsrində psixologizmin xüsusiyyətləri və onun L.Tolstoy yaradıcılığında psixologizm ilə müqayisəsinin istiqamətləri araşdırılır və

---

[21] Tolstoy, L.N. Hacı Murad / L.N.Tolstoy. – Bakı: Nurlan nəşriyyatı, – 2008. – 166 s.

[22] Bədəlova, A.Z. Lev Tolstoy qəhrəmanlarının daxili dünyası ilə təbiət mühiti arasında əlaqənin tipologiyası məsələsinə dair // – Bakı: Azərbaycan Dillər Universiteti, Dil və ədəbiyyat, – 2020. №1, – s.97-103; Lev Tolstoy qəhrəmanlarının tənhalaşması psixoloji proses kimi// – Bakı: Bakı Slavyan Universiteti, Elmi əsərlər, Dil və ədəbiyyat seriyası, – 2020. №1, – s.170-175; Lev Tolstoy qəhrəmanlarının psixoloji yaşantıları mühit və cəmiyyət kontekstində // – Naxçıvan: Elmi əsərlər, İctimai və humanitar elmlər, – 2023. XIX cild, – s.223-230; The effect of war to the inner world of characters in Leo Tolstoy's novel "War and Peace" // – O'zbekiston: Fardu. Ilmiy xabarlar, İjtimoiy gumanıtar fanlar, – 2024. № 5, – s.161-165.

L.Tolstoyun "Hacı Murad" povesti ilə İ.Şıxlının "Dəli Kür", F.Kərimzadənin "Qarlı aşırım" romanlarının baş qəhrəmanları müqayisə edilir.

III fəslin birinci paraqrafı ***"1960-1980-ci illər nəsrində L.Tolstoy psixologizminin ifadə üsulları: obrazların bir-birinə münasibəti psixoloji təhlil obyekti kimi"*** adlanır.

1960–1980-ci illər Azərbaycan nəsrində psixologizmin bədii ifadə formaları Tolstoyun yaradıcılıq ənənələrindən təsirlənmişdir. Bu dövrdə Azərbaycanın görkəmli yazıçıları insanın daxili aləminə diqqət yetirmiş və əsərlərində qəhrəmanların mənəvi, psixoloji inkişafına xüsusi yer ayırmışdılar. Tolstoyun ədəbi irsi Azərbaycan yazıçıları üçün nümunə olmuşdur, çünki Tolstoy əsərlərində insan ruhunun dərinliklərinə, onun psixoloji vəziyyətinin mürəkkəbliyinə böyük diqqət ayırırdı. Tolstoyun qəhrəmanlarının mənəvi və psixoloji inkişafı hadisələrin təsirilə dəyişir, onların daxili aləmi xarici mühitlə əlaqəli şəkildə inkişaf edir. 1960-1980-ci illər Azərbaycan nəsrində də insan xarakteri psixoloji şəkildə təqdim edilir, lakin bu dövrdə yazılan əsərlərdə qəhrəmanların daxili aləmi çox zaman sabit qalır və dəyişikliklər, əksər hallarda, xarici mühitdən təsirlənmədən davam edir. Tolstoyun psixologizmi ilə müqayisədə, Azərbaycan nəsrində psixologizm daha çox qəhrəmanların başına gələn hadisələrdən asılı olaraq inkişaf edir.

Azərbaycan nəsrində obrazların psixoloji təsviri əsasən qəhrəmanların rəftar və davranışlarında ifadə olunur. Misal olaraq, İsmayıl Şıxlının "Dəli Kür" romanında[23] Cahandar ağanın hərəkətləri, onun daxili aləminin əks-sədası kimi təqdim edilir. Tolstoy yaradıcılığında isə qəhrəmanların psixoloji vəziyyəti daxili monoloqlar vasitəsilə daha dərindən öyrənilir. Məsələn, Tolstoyun "Anna Karenina" romanında Anna öz intiharından əvvəl daxili monoloqları ilə oxucunu qərarına hazırlayır.

Azərbaycan nəsrində qəhrəmanların psixoloji portreti onların xarici görünüşü ilə uyğun gəlir. Məsələn, Elçinin "Mahmud və Məryəm" əsərində[24] Mahmudun təmiz qəlbi onun şəffaf gözləri ilə simvolizə edilir. Tolstoy nəsrində isə xarici və daxili görkəm

---

[23] Şıxlı, İ. Dəli Kür / İ.Şıxlı. – Bakı: Qanun nəşriyyatı, – 2019. – 512 s.
[24] Elçin. Seçilmiş əsərləri / Elçin. – Bakı: Avrasiya Press, – 2005. – 424 s.

arasında çox vaxt təzad var. Anatol Kuragin və Elen obrazlarında zahiri gözəlliklə daxili mənəvi boşluq arasındakı ziddiyyət təzad təşkil edir.

Tolstoyun qəhrəmanları mühitin təsiri ilə dəyişir, Azərbaycan yazıçıları isə qəhrəmanların dəyişməzliyinə daha çox meyil edirlər. Həm Tolstoy yaradıcılığında, həm də Azərbaycan nəsrində psixoloji portretin yaradılması zamanı daxili monoloq və dialoq kimi üsullar geniş istifadə edilir. Tolstoyun qəhrəmanlarının yuxu və xəyalları onların psixoloji aləminin açılmasında mühüm rol oynayır. Bu üsul Azərbaycan nəsrində də, xüsusilə İsi Məlikzadənin yaradıcılığında öz əksini tapmışdır.

Sonda, hər iki ədəbi ənənədə psixologizm qəhrəmanların xarakterinin açılmasında, onların daxili aləminin təhlilində əsas metod olmuşdur. Lakin Tolstoyun psixologizmi daha dərin, hadisələrin hər bir təfərrüatını mənəvi təhlil vasitəsilə təqdim edən bir üsul idi, Azərbaycan nəsrində isə psixologizm qəhrəmanların zahiri hərəkətləri, davranış motivləri vasitəsilə ifadə olunmuşdur.

Fəslin ikinci paraqrafı ***"Anar nəsrində psixologizmin xüsusiyyətləri və L.Tolstoy yaradıcılığında psixologizm ilə müqayisəsinin istiqamətləri"*** adlanır.

Anarın nəsrində psixologizm xüsusi yer tutur və bu xüsusiyyət onun əsərlərini dərin mənəvi məzmunla zənginləşdirir. Anar qəhrəmanlarının daxili aləmini təsvir edərkən insanın ruhunun, düşüncələrinin və emosiyalarının incə detallarına toxunur. Onun yaradıcılığında insan psixologiyasının mürəkkəbliyi, həyatdakı çətinliklərə və sosial mühitə qarşı qəhrəmanların davranışı geniş şəkildə təsvir edilir. O, insan psixologiyasının gizli qalan tərəflərini açıb göstərməyə çalışmış və əsərlərində personajın hiss və duyğularını, düşüncə və fikirlərini, arzu və istəklərini ətraflı təsvir edərək insanın mahiyyətini, dünyaya yanaşmasını, keçmişini və gələcəyini, yaşadığı mühitin onun daxili aləminə təsirini sənətkarlıqla əks etdirmişdir. Anar əsərlərində psixologizmin müxtəlif bədii formalarından istifadə edir, xüsusilə qəhrəmanların daxili monoloqları və dialoqları onların xarakterlərini açır. Məsələn, "Beşmərtəbəli evin altıncı mərtəbəsi" əsərində[25] Təhminə və Zaurun

---

[25] Anar. Seçilmiş əsərləri / Anar. – Bakı: Lider, – 2004. – 416 s.

hiss və düşüncələrində baş verən ziddiyyətlər, sevginin və qısqanclığın yaratdığı emosional gərginlik, həmçinin ictimai mühitin təzyiqləri əsərin əsas psixoloji mahiyyətini göstərir. Anarın qəhrəmanları, daxili təbəddülatları və ziddiyyətli duyğuları ilə oxucuda dərin psixoloji təəssürat yaradır.

Lev Tolstoy yaradıcılığı ilə müqayisə aparıldıqda, Anarın psixologizminin Tolstoy yaradıcılığından müəyyən fərqli cəhətləri üzə çıxır. Tolstoy insanın daxili aləmini təsvir edərkən xarici aləmlə daxili aləmin ziddiyyətlərini, dəyişkənliyini önə çəkir, qəhrəmanların daxili inkişaf prosesini göstərir. Tolstoyun qəhrəmanları zamanla dəyişir, inkişaf edir və daxili dəyişikliklər keçirir. Məsələn, Anna Karenina və Vronski obrazlarının keçirdiyi psixoloji sarsıntılar və xarakterlərində müşahidə olunan mənəvi dəyişikliklər bu baxımdan səciyyəvidir. Anar isə qəhrəmanlarının xarakterlərini formalaşmış, sabit təqdim edir. Onun əsərlərində qəhrəmanların xarici və daxili aləmi bir-birini tamamlayır. Xarici gözəllik daxili saf niyyətləri əks etdirir və qəhrəmanların emosional vəziyyətləri, hiss və düşüncələri dəyişməz qalır. Anarın qəhrəmanlarının düşüncə və həyat mövqeləri nisbətən sabit olduğu üçün əsərlərin sonluğu tam müəyyənləşməsə də, oxucu obrazların mahiyyətini və müəllif mövqeyini daha asan qavraya bilir.

Beləliklə, hər iki yazıçının yaradıcılığında psixologizmin əsas ifadə vasitələri oxşarlıq təşkil etsə də, Anar qəhrəmanlarının psixoloji inkişafının sabit xarakter daşıması və onların daxili aləmi ilə xarici görünüşü arasında mövcud uyğunluq onu Tolstoydan fərqləndirən əsas xüsusiyyətlərdir. Anarın yaradıcılığında psixologizm insanın mənəvi-psixoloji aləminin dərindən təsviri vasitəsilə göstərilir və oxucunu düşünməyə və hadisələri dərindən təhlil etməyə sövq edir.

Fəslin sonuncu paraqrafı ***“L.Tolstoyun “Hacı Murad” povesti ilə F.Kərimzadənin “Qarlı Aşırım”, İ.Şıxlının “Dəli Kür” romanlarının baş qəhrəmanları müqayisə müstəvisində”*** adlanır. Lev Tolstoyun “Hacı Murad” povesti ilə İsmayıl Şıxlının “Dəli Kür” və Fərman Kərimzadənin “Qarlı Aşırım” romanlarının baş qəhrəmanlarının müqayisəsi onların döyüşkən və mübariz xarakterlərini, daxili ziddiyyətlərini və milli kimliklərini ortaya qoyur. Tolstoyun Hacı Muradı Qafqaz müharibəsi zamanı ruslara

qarşı mübarizə aparan mərd bir döyüşçüdür. Bu obraz Qafqaz xalqlarının azadlıq uğrunda mübarizə ruhunu təcəssüm etdirir. Hacı Murad obrazı həm fiziki, həm də mənəvi cəhətdən güclü, qətiyyətli və iradəli bir şəxsiyyət kimi təqdim olunur. Onun xarakterində cəsarət, azadlıq sevgisi, şərəf və ləyaqət kimi keyfiyyətlər yazıçı tərəfindən təsvir edilir. Ailəsi və mənsub olduğu dəyərlər uğrunda apardığı mübarizə onu eyni zamanda həm mərd, həm də həssas bir insan kimi göstərir. Ailəsinin əsir düşməsi ilə yaranan çıxılmaz vəziyyət Hacı Muradın çar Rusiyasına müraciət etməsinə gətirib çıxarır və bu hal xarakterin ziddiyyətli, mürəkkəb bir qəhrəman kimi formalaşdığını ortaya qoyur.

Fərman Kərimzadənin "Qarlı Aşırım" əsərində[26] Kərbəlayi İsmayıl da Hacı Murad kimi mübariz ruhlu bir qəhrəmandır. O da torpağı, ailəsi və dəyərləri uğrunda mübarizə aparan, əyilməz bir xarakterdir. Lakin Hacı Muraddan fərqli olaraq, Kərbəlayi İsmayılın daxili aləmi daha dərin bir vicdan əzabıyla yüklənir. Abbasqulu bəyin ölümünə səbəb olduğu üçün vicdan əzabı çəkir, həmçinin şərəf və ləyaqətini qorumaq üçün düşmənlə belə əməkdaşlıq etməkdən çəkinmir. O da Hacı Murad kimi adət-ənənələrinə, mənəvi dəyərlərinə sarsılmaz sədaqət nümayiş etdirir. İsmayıl Şıxlının "Dəli Kür" romanının baş qəhrəmanı Cahandar ağa isə həm Hacı Murad, həm də Kərbəlayi İsmayılla müqayisədə daha mürəkkəb bir xarakterdir. O, güclü iradəyə, sərt xarakterə malik bir insan kimi təqdim olunur. Cahandar ağa hər şeydən əvvəl qürurlu, cəsarətli və nüfuzlu bir şəxsdir. O, öz sözünün sahibi, qərarlarından geri çəkilməyən, ailəsinin şərəf və namusunu hər şeydən üstün tutan bir obrazdır. Cahandar ağa adət-ənənələrə və patriarxal dəyərlərə möhkəm bağlıdır, buna görə də bəzi hallarda həddindən artıq sərt və barışmaz davranır. Cahandar ağa və Hacı Murad obrazlarını birləşdirən əsas cəhət hər iki obrazın cəsur, mövcud zamanın qanunlarına tabe olmaqdan boyun qaçıran, qeyrətlə, namusla yaşayan, düşmənə qarşı sona kimi mübariz olmasıdır. Hacı Murad kimi Cahandar ağa da bəzi məqamlarda zəiflik göstərsə, kövrəlsə, tutduğu işdən peşman olsa da, büruzə vermir. Bu zəiflik və kövrəklik

[26] Kərimzadə, F. Qarlı Aşırım / F.Kərimzadə. – Bakı: Kitab klubu, 2016. – 400 s.

xarakterlərin mənəvi sıxıntılarıdır, onların öz daxilində yaşadıqları və heç kimə göstərmədikləri tərəflərdir.

Bu üç əsərin qəhrəmanları arasında olan əsas fərq isə onların xarakterlərinin mübarizə üsullarıdır. Hacı Murad açıq döyüş meydanında vuruşur, igidlik və şücaət nümayiş etdirir. Kərbəlayi İsmayıl gizli mübarizə aparır, şura hökumətinə qarşı mübarizəsini uzaqdan aparır. Cahandar ağa isə daha çox mənəvi mübarizənin simvoludur, onun mübarizəsi şəxsi və ailəvi dəyərlər üzərində cərəyan edir.

Beləliklə, Tolstoyun Hacı Muradı, Kərimzadənin Kərbəlayi İsmayılı və Şıxlının Cahandar ağası milli kimlik, şərəf və mübarizə mövzularını dərin psixologizm və tarixi kontekst çərçivəsində işləyən xarakterlərdir. Onlar oxşar xüsusiyyətlərinə baxmayaraq, öz şəraitlərində fərqli şəkildə mübarizə aparırlar və hər biri öz dövrünün milli varlığını əks etdirir.

*Üçüncü fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.*[27]

---

[27] Bədəlova, A.Z. Психологизм в романе Анара "Шестой этаж пятиэтажного дома" // – Kutaisi: IV International Scientific Conference, – 18-20 октябрь, – 2019, – s.84-87; Methods of expressing of Leo Tolstoy's psychologism in the prose of 1960-1980 years // – London: Black Sea, – 2020. – s.9-12; Lev Tolstoyun Hacı Murad obrazının 1960-1980-ci illər Azərbaycan nəsrində obrazlarla müqayisəsinin tipologiyası // – Bakı: Pedaqoji Universitetin xəbərləri, Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2021. №2, – s.33-40; 1960–1980-ci illər Azərbaycan nəsrində psixologizm müqayisəli ədəbiyyatşünaslığın təhlil obyekti kimi // – Bakı: Azərbaycan dili və ədəbiyyat tədrisi, – 2025. №2, – s.115-123; Artistic and historical character of the image in Leo Tolstoy’s novel "Haji Murad"// Проблемы Филологии Глазами Молодых Исследователей. Пермский Государственный Национальный Исследовательский Университет, – Перм: – 23-24 may, – 2025, – s.145-149; Yazar Anarın eserlerinde psikolojizm ve onun Lev Tolstoyun yaratıcılığındakı psikolojizm ile karşılaştırılması // – O‘Zbek Filologiyasining Dolzarb Masalalari Va Uni O‘Qitish Metodikasi Muammolari, – 9 dekabr, – 2025, – s.23-28; In Tolstoy's creativity nature as the harmony of human thought and spirit // Мир лингвистики и коммуникации: вербально-когнитивный вектор исследований и социальные практики Материалы Международной междисциплинарной научно-практической конференции, – Тверь, – 17−19 апреля, – 2025, – с.32-37.

“Lev Tolstoy yaradıcılığında psixologizm və onun 1960-1980-ci illər Azərbaycan nəsrinə təsirləri” mövzusunda apardığımız tədqiqatın yekunu olaraq aşağıdakı **nəticələrə** gəlinmişdir:

Tədqiqatın nəticələri göstərir ki, psixologizm dünya və rus ədəbiyyatında, xüsusilə də Lev Tolstoy yaradıcılığında yüksək bədii səviyyədə inkişaf etmiş, Azərbaycan nəsrində isə əsasən 1960–1980-ci illərdə geniş yayılmışdır. Tolstoy daxili monoloq, ruhun dialektikası, şüur axını, dialoq və psixoloji təhlil vasitəsilə obrazların daxili aləmini dərindən açmış, bu ənənə Azərbaycan yazıçılarının yaradıcılığına da təsir göstərmişdir. Müqayisəli təhlillər göstərir ki, Anar, İsmayıl Şıxlı və Fərman Kərimzadə kimi sənətkarlar Tolstoyun psixoloji təsvir ənənəsindən bəhrələnsələr də, öz milli və fərdi üslublarını qoruyaraq obrazların mənəvi dünyasını orijinal şəkildə təqdim etmişlər. Beləliklə, psixologizm həm Tolstoy yaradıcılığında, həm də Azərbaycan nəsrində insan xarakterinin, daxili konfliktlərinin və mənəvi inkişafının bədii ifadəsində mühüm estetik vasitə kimi çıxış edir.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:**


1. Lev Tolstoyun “Hərb və sülh” romanında psixologizmin təzahür xüsusiyyətləri // Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransı, – Bakı: – 22-23 noyabr, – 2018, – s.224-226.
2. Психологизм в романе Анара "Шестой этаж пятиэтажного дома" // – Kutaisi: IV International Scientific Conference, – 18-20 октябрь, – 2019, – s.84-87.
3. Lev Tolstoy nəsrində psixologizm // – Bakı: AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2020. №1, – s.297-303.
4. Lev Tolstoy qəhrəmanlarının daxili dünyası ilə təbiət mühiti arasında əlaqənin tipologiyası məsələsinə dair // – Bakı: Azərbaycan Dillər Universiteti, Dil və ədəbiyyat, – 2020. №1, – s.97-103.
5. Lev Tolstoy qəhrəmanlarının tənhalaşması psixoloji proses kimi// – Bakı: Bakı Slavyan Universiteti, Elmi əsərlər, Dil və ədəbiyyat seriyası, – 2020. №1, – s.170-175.

6. Methods of expressing of Leo Tolstoy's psychologism in the prose of 1960-1980 years // – London: Black Sea, – 2020. – s.9-12.
7. 1960-1980-ci illər Azərbaycan nəsrində psixologizm // – Bakı: Dil və Ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2020. – s.132-134.
8. Psixologizm anlayışı. Qəhrəmanın daxili aləmi psixoloji təsvirin predmeti kimi // “Türk dillərinin və ədəbiyyatinin tədqiqi və tədrisinin aktual problemləri” Beynəlxalq elmi konfrans, – Sumqayıt: – 20-21 may, – 2021. №4, – s.316-318.
9. Lev Tolstoyun Hacı Murad obrazının 1960-1980-ci illər Azərbaycan nəsrində obrazlarla müqayisəsinin tipologiyası // – Bakı: Pedaqoji Universitetin xəbərləri, Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2021. №2, – s.33-40.
10. Lev Tolstoy qəhrəmanlarının psixoloji yaşantıları mühit və cəmiyyət kontekstində // – Naxçıvan: Elmi əsərlər, İctimai və humanitar elmlər, – 2023. XIX cild, – s.223-230.
11. The effect of war to the inner world of characters in Leo Tolstoy's novel "War and Peace" // – O'zbekiston: Fardu. Ilmiy xabarlar, İjtimoiy gumanıtar fanlar, – 2024. № 5, – s.161-165.
12. 1960–1980-ci illər Azərbaycan nəsrində psixologizm müqayisəli ədəbiyyatşünaslığın təhlil obyekti kimi // – Bakı: Azərbaycan dili və ədəbiyyat tədrisi, – 2025. №2, – s.115-123. https://doi.org/10.48445/h7703-9912-0456-w
13. Human psychology in Leo Tolstoy's creativities // – Москва: Филология будущего, которое мы создаем: тенденции, смыслы, приоритеты. Московский международный университет, Институт иностранных языков, – 2025. – s.183-190. eLIBRARY ID: 82533600 EDN: HPXTSW
14. Artistic and historical character of the image in Leo Tolstoy’s novel “Haji Murad” // Проблемы Филологии Глазами Молодых Исследователей. Пермский Государственный Национальный Исследовательский Университет, – Перм: – 23-24 may, – 2025, – s.145-149.
15. Yazar Anarın eserlerinde psikolojizm ve onun Lev Tolstoyun yaratıcılığındakı psikolojizm ile karşılaştırılması // – O‘Zbek

Filologiyasining Dolzarb Masalalari Va Uni O'Qitish Metodikasi Muammolari, – 9 dekabr, – 2025, – s.23-28.

16. In Tolstoy's creativity nature as the harmony of human thought and spirit // Мир лингвистики и коммуникации: вербально-когнитивный вектор исследований и социальные практики Материалы Международной междисциплинарной научно-практической конференции, – Тверь, – 17–19 апреля, – 2025, – с.35-40.

Dissertasiyanın müdafiəsi 25 sentyabr 2026-cı il tarixində saat 14⁰⁰ Bakı Slavyn Universiteti nəzdində fəaliyyət göstərən FD 2.13 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1014, S.Rüstəm 33. Bakı Slavyan Universiteti.

Dissertasiya ilə Bakı Slavyan Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Bakı Slavyan Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 14 iyul 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.05.2026

Kağızın formatı: A5

Həcm: 40098 işarə

Tiraj: 100 nüsxə